# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2025-ci il ərzində fəaliyyətinə dair Hesabat


Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
2025-ci il
3 Anlaşma Memorandumu
18 Konfrans
7 Dəyirmi masa
6 Təqdimat
4 Beynəlxalq forum
2 Yay və Qış Məktəbi
8 Seminar
2 Konsert
2 Sənədli film
22 Görüş
10 Xaricdə tədris
38 Ölkədaxili tədris
2 Treninq
10 Yeni kitab
11 Multikulturalizm verlişi
27 ölkənin mediasında 750 dən çox xəbər
multiculturalaz
multiculturalismbaku
bbmm_multikulturalizm
@bakuinternationalmulticult7889

**I bölmə**

**Ölkə daxilində konfrans, dəyirmi masa, seminar, tədbir, təqdimat və görüşlər**

| № | Tədbirlə bağlı məlumatlar | Təşkilatçılar | Tarix və məkan | Tədbirin keçirilmə forması | Qeydlər |
|---|---|---|---|---|---|
| **1.** | 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr edilmiş anım tədbiri keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 17 yanvar, 2025-ci il, BBMM | Anım tədbiri | Tədbirdən öncə Şəhidlər xiyabanı ziyarət olunub, daha sonra dəyirmi masatəşkil edilib. Anım tədbirində ölkəmizdə yaşayan etnik və dini icmaların rəhbərləri, alimlər və Milli Məclisin deputatları iştirak ediblər. |
| **2.** | “Holokost soyqırımı müasirlərin gözü ilə” mövzusunda dəyirmi masa keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 27 yanvar, 2025-ci il, BBMM | Dəyirmi masa | BBMM-in təşkilatçılığı ilə keçirilən tədbirdə İsrailin Azərbaycandakı səfiri Corc Dik, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri və Azərbaycanda fəaliyyət göstərən etnik və dini icmaların rəhbərləri iştirak ediblər. |
| **3.** | “ASAN xidmət” mərkəzinin “Tolerantlıq” qrupu könüllülərinin təşəbbüsü ilə “Azərbaycan - Tolerantlıq və multikulturalizm məkanı” mövzusunda panel görüşü keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ASAN Xidmət | 30 yanvar, 2025-ci il, 4 saylı ASAN Xidmət Mərkəzi | Seminar | Görüşdə BBMM-in Analitika şöbəsinin müdiri Rəşad İlyasov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbə müdiri Cahandar Əlifzadə və fəlsəfə doktoru, sosioloq, ekspert Ağasəlim Həsənov təqdimatla çıxış ediblər. Panel görüşü çərçivəsində Azərbaycanın tolerantlıq və multikulturalizm ənənələri, ölkəmizdə fərqli dinlərə və millətlərə hörmət mühiti, eləcə də Azərbaycan modelinin dünyaya nümunə olması mövzuları müzakirə edilib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4.** | “Vətənə bağlı” sənədli filminin təqdimatı keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dağ Yəhudiləri Dini İcması | 19 fevral, 2025-ci il, BBMM | Təqdimat | Dağ Yəhudiləri Dini İcmasının sədri Melix Yevdayevə həsr olunan “Vətənə bağlı” sənədli filmi Azərbaycan Televiziya və Radio Verlişləri QSC-nin dəstəyi ilə hazırlanıb. Film ilk dəfə olaraq Mərkəzdə etnik və dini icmalarla və ictimaiyyət nümayəndələrinin iştirakı ilə təqdim olunub. |
| **5.** | Xocalı soyqırımı ilə bağlı anım tədbiri keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, | 26 fevral, 2025-ci il, BBMM | Anım tədbiri | Öncə BBMM-in kollektivi “Ana fəryadı” abidəsini ziyarət edib və Xocalı şəhidlərini anıb. Daha sonra isə Mərkəzdə anım gününə həsr olunan dəyirmi masa təşkil edilib. |
| **6.** | “Multikultural situasiya həyat tərzi və dövlət siyasəti kimi” mövzusuna həsr olunan seminar təşkil edilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) | 21 aprel, 2025-ci il, UNEC | Seminar | Azərbaycan Dövlət İqtisad Universitetinin UNEC Diplomatiya Təşkilatının təşəbbüsü ilə keçirilən seminarda BBMM-in Analitika şöbəsinin müdiri Rəşad İlyasov Azərbaycanda multikulturalizm siyasəti, mövcud reallıqlar və dünyada baş verən proseslər haqqında mühazirə oxuyub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **7.** | Ukrayna dilində çap olunan “Əli və Nino” əsərinin təqdimatı keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Kitabxanası, Ukraynanın Azərbaycandakı Səfirliyi | 23 aprel, 2025-ci il, Azərbaycan Milli Kitabxanası | Təqdimat | Tədbirdə BBMM-in icraçı direktoru Rəvan Həsənov, Ukraynanın Azərbaycandakı səfiri Yuriy Qusev, Xalq yazıçısı Elmira Axundova, Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu çıxış ediblər, Azərbaycanın dini və etnik icmalarının nümayəndələri, ali təhsil müəssisələrinin müəllimləri, tələbələr, BBMM-in və Azərbaycan Milli Kitabxanasının əməkdaşları iştirak ediblər. |
| **8.** | “Samur” Ləzgi Mədəniyyət Mərkəzi İctimai Birliyinin hesabat-seçki yığıncağı keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Samur-Ləzgi Mədəniyyət Mərkəzi | 25 aprel, 2025-ci il, BBMM | Dəyirmi masa | Tədbir Ləzgi icmasının müraciəti əsasında Mərkəzdə təşkil olunub və ötən dövr ərzində həyata keçirilmiş işlərlə bağlı hesabata və icmasının sədr seçkilərinə həsr edilib. Tədbiri BBMM-in direktor müavini Ramin Qəmbərov aparıb. |
| **9.** | “Dağıdılmış irs: səssiz şahidlər” fotoalbomunun təqdimatı keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Qarabağ Dirçəliş Fondu, Prezident Kitabxanası | 21 may, 2025-ci il, AR Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası | Təqdimat | Təqdimat tədbirində dövlət qurumlarının rəsmiləri, alimlər, Milli Məclisin deputatları və ali təhsil müəssisələrinin müəllimləri və tələbələri iştirak ediblər. Təqdimatda Qarabağ və Şərqi Zəngəzur İqtisadi rayonlarında ermənilər tərəfindən dağıdılmış tarixi, mədəni və dini abidələrimizin işğaldan öncəki və işğaldan sonrakı vəziyyətini əks etdirən şəkillər, bu gün həyata keçirilən quruculuq və bərpa işləri haqqında geniş müzakirələr aparılıb. |

| | | | | | |
|---|---|---|---|---|---|
| 10 | “Əvəsor” folklor qrupunun 60 illiyinə həsr olunan “Talış folkloru konserti” keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Talış icması | 22 may, 2025-ci il,<br>Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı | Konser | Konsert proqramının rəsmi hissəsində BBMM-in icraçı direktoru Rəvan Həsənov, Talış icmasının ağsaqqalı İmamverdi Həmidov, Milli Məclisin deputatları Anar İsgəndərov, Azər Badamov, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Azərbaycanda Rus İcmasının sədri Mixail Zabelin, riyaziyyat üzrə fəlsəfə doktoru Hilal Məmmədov çıxış ediblər. Tədbirin bədii hissəsində “Əvəsor”, “Hovəli”, “Nənələr”, “Babalar”,  “Rəfte”, “Halay” folklor qruplarının ifaları dinlənib. |
| 11 | “Azərbaycanda Xristianlıq: Tarix, müasir dövr, perspektivlər” mövzusunda dəyirmi masa təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası | 3 iyun, 2025-ci il, BBMM | Dəyirmi masa | Dəyirmi masada ölkəmizdə fəaliyyət göstərən bütün dini icmaların rəhbərləri, eləcə də Milli Məclisin deputatları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Azərbaycanda xristianlığın tarixi və müasir durum müzakirə olunub, məruzələr dinlənilib. |
| 12 | “Konstitusiya etnomədəni müxtəlifliyin qarantı kimi” mövzusunda konfrans təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 11 iyun, 2025-ci il,<br>Bakı şəhəri | Konfrans | “Konstitusiya və Suverenlik İli” çərçivəsində təşkil olunmuş konfransda etnik və dini icmaların rəhbərləri, Milli Məclisin deputatları, alim və ictimaiyyət nümayəndələri iştirak ediblər. Eyni zamanda tədbir çərçivəsində “Heydər Əliyev və Azərbaycan multikulturalizmi” adlı sənədli film də təqdim olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **13** | "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin – qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin təqdimat mərasimində iştirak edilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qərbi Azərbaycan İcması | 24 iyun, 2025-ci il, Gülüstan sarayı | Təqdimat | BBMM-in icraçı direktoru Rəvan Həsənov bildirib ki, nəşrdə əks olunmuş məlumatların ictimaiyyətə sistemli formada və bütün elmi standartlara cavab verəcək şəkildə çatdırılması əlimizdə yeni faktlara əsaslanan və ədalətsizliklə mübarizə aparmaq üçün xüsusi bir vasitədir. Kitabda ilk dəfə olaraq Qərbi Azərbaycan ərazisində qəbiristanlıqların Ermənistan tərəfindən sistemli şəkildə dağıdılması və vandalizmə məruz qalması tədqiqat obyektinə çevrilib və sənədləşdirilib. |
| **14** | Şəki "İpəkyolu" XIV Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycanda yaşayan müxtəlif etnik qrupların rəqs və mahnı ansambllarının konserti keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Bəstəkarlar İttifaqı, Şəki Rayon İcra Hakimiyyəti | 4 iyul, 2025-ci il, Şəki şəhəri | Konsert | Konsertdə "Cahan" Avar Xalq Kollektivi, "Hovalim" Talış Folklor Qrupu, "Suvar" ləzgi mahnı və rəqs ansamblı, "Slavyanoçka" Xalq Xoru, "Xınayaxdı" Folklor Xalq Kollektivi musiqili proqramla çıxış etmişdir. Müxtəlif etnik qrupların - talış, avar, ləzgi, molokan, tat icmalarının folklor qruplarının çıxışı tamaşaçılar tərəfindən maraqla qarşılanıb. |
| **15** | "Qarabağın azadlığı və dirçəlişində ictimai həmrəyliyin rolu" mövzusunda konfrans keçirilmişdir. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qarabağ Dirçəliş Fondu | 24 sentyabr, 2025-ci il, Bakı şəhəri | konfrans | 27 sentyabr - Anım Gününə həsr olunan tədbirdə ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri, dini icma rəhbərləri, şəhid ailələri və qazilər iştirak ediblər. Konfransda "Biz birlikdə güclüyük" filmi nümayiş olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **16** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin kollektivi 27 Sentyabr - Anım Günü ilə əlaqədar olaraq Zəfər parkını ziyarət edib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 27 sentyabr, 2025-ci il, Bakı şəhəri | Anım tədbiri | Zəfər abidəsi önünə gül dəstələri qoyub, ölkəmizin ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər. |
| **17** | İsrail Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ronen Krausz ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 30 sentyabr, 2025-ci il, BBMM | Görüş | Görüş zamanı ölkəmizə yeni təyin olunmuş səfirə Azərbaycandakı multikultural vəziyyət, Mərkəzin oynadığı rol, ölkəmizdəki yəhudi icmaları ilə qarşılıqlı əməkdaşlıq kimi mövzularda ətraflı məlumat verilib. |
| **18** | “Ronahi” Kürd Mədəniyyət Mərkəzinin yaranmasının 35 illiyinə həsr olunan tədbir keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 31 oktyabr, 2025-ci il, BBMM | Dəyirmi masa | Qeyd edək ki, Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyət mərkəzləri ilə BBMM sıx əməkdaşlıq edir, müxtəlif layihələr həyata keçirir. Ronahi Kürd Mədəniyyət Mərkəzinin müraciəti ilə də dəfələrlə müxtəlif tədbirlər keçirilib. |
| **19** | 8 Noyabr - Zəfər Gününün 5 illiyinə həsr edilən “Biz birlikdə güclüyük” mövzusunda konfrans keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 12 noyabr, 2025-ci il, Bakı şəhəri | Konfrans | Konfransda ölkəmizdə yaşayan və fəaliyyət göstərən etnik və dini icmaların rəhbərləri, Milli Məclisin deputatları, alimlər, tələbələr və media nümayəndələri iştirak ediblər. Konfransda “Vətənimiz” adlı sənədli film nümayiş olunub. Tədbirin keçirilməsində məqsəd qələbəmizin arxasındakı milli birliyimizi vurğulamaq olub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **20** | Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyətlərini təqdim etmək məqsədi ilə etnik icmalarla fəliyyətin təşkil olunması. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | İl ərzində | Görüşlər | BBMM-in fəaliyyət istiqamətlərindən biri də ölkəmizdəki etnik icmalarla birgə onların dillərinin və mədəniyyətlərinin qorunması istiqamətində fəaliyyətin təşkil olunması və beynəlxalq təşkilatlara bununla bağlı hesabatların hazırlanmasıdır. Bu istiqamətdə hər ay etnik icmaların rəhbərləri ilə görüşlər təşkil olunur. |
| **21** | İşğaldan azad olunmuş ərazilərdə Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupunun tərkibində fəaliyyət. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | İl ərzində | | İşçi qrupunun tərkibində dəfələrlə işğaldan azad olunmuş ərazilərimizə səfərlər təşkil edilib, dağıdılmış və saxtalaşdırılmağa cəhd olunmuş mədəni irs nümunələrinə baxış keçirilib, hesabatlar və arayışlar hazırlanıb. Bu fəaliyyət yeni layihələrin formalaşmasına təkan olub. |
| **22** | Eyvaz Güləliyevin Ləzgi dilində “Seçilmiş əsərlər II hissə” kitabının təqdimatı keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 5 dekabr | Təqdimat | Təqdimat ilə bağlı tədbir Samur Ləzgi Mədəniyyət Mərkəzinin müraciəti əsasında ləzgi icmasının iştirakı ilə keçirilib. Kitab BBMM-in azsaylı xalqların dillərinin qorunması istiqamətində həyata keçirdiyi layihə çərçivəsində nəşr edilib. |
| **23** | “Zərifə və Heydər Əliyevlər. Əbədiyaşar məhəbbət” kitabının ukrayna dilində nəşrinin təqdimatı keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 9 dekabr | Təqdimat | Ukraynanın Azərbaycandakı Səfirliyi və Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun müraciəti əsasında BBMM-də Ulu Öndər Heydər Əliyevin Anım günü ərəfəsində kitabın təqdimatı keçirilib.Kitabın müəllifi Xalq yazıçısı Elmira Axundovadır. |

## II bölmə
## Beynəlxalq konfrans, dəyirmi masa, seminar, görüş və tədbirlər

| | | | | | |
|---|---|---|---|---|---|
| **1.** | “Reyunyonun müstəqilliyi: Fransanın müstəmləkə mirasına və suverenlik yoluna baxış” adlı konfransda iştirak edilib. | Bakı Təşəbbüs Qrupu, BBMM | 22 yanvar, 2025-ci il, | Beynəlxalq konfrans | Konfransda BBMM-in müşaviri professor Aytən Qəhrəman məruzə ilə çıxış edib. |
| **2.** | Hindistanın Şri-Şri Universitetində Azərbaycan multikulturalizm fənninin tədrisi layihəsi çərçivəsində “Azərbaycan multikulturalizm modeli” mövzusunda konfrans keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Şri-Şri Universiteti | 20 fevral, 2025-ci il, Real vaxt rejimində. (onlayn) | Beynəlxalq konfrans | Tədbirdə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Şahin Seyidzadə, universitetin rektoru professor Anil Şarma, İncəsənət, ünsiyyət və hind tədqiqatları fakültəsinin dekanı professor Guru Ratikant Mohapatra, fakültənin müəllimi professor Pronema Baqçı, Hindistanda Azərbaycan Mültikulturalizmi fənnini tədris edən Kənan Məmmədov və universitetin tələbələri iştirak ediblər. Rektoru Anil Şarma çıxışında BBMM-in və Şri Şri Universitetinin əməkdaşlığının vacibliyini vurğulayıb. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3.** | Avropa Parlamentinin keçmiş vitse-prezidenti Riçard Çarnetski ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, | 20 fevral, 2025-ci il, Bakı şəhəri | Görüş | BBMM-də baş tutan görüşdə icraçı direktor tərəfindən qonağa Azərbaycanın multikulturalizm siyasəti və Mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verilib. |
| **4.** | "Dini azadlıqdan dini məsuliyyətə" mövzusunda ikinci beynəlxalq konfransda iştirak edilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Doha Beynəlxalq Dinlərarası Dialoq Təşkilatı | 21 fevral, 2025-ci il, Doha şəhəri | Beynəlxalq konfrans | Konfransda BBMM-in müşaviri professor Aytən Qəhrəman və aparıcı məsləhətçisi Günel Rüstəmova iştirak ediblər. "Dini etiqad azadlığından dini məsuliyyətə: Sabitləşmiş dünyada sülhün yaradılması" başlığı altında keçirilən üç günlük konfransda dünyanın hər yerindən tanınmış din alimləri, akademiklər və dini liderlər iştirak ediblər. Mərkəzin müşaviri professor Aytən Qəhrəman konfransda məruzə ilə çıxış edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **5.** | Türkiyənin Ərciyəs Universiteti, Bolqarıstanın Kliment Oxridski adına Sofiya Universiteti və Rumıniyanın İoan Kuza Universitetində Xocalı Soyqrımı ilə bağlı açıq seminarlar təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Ərciyəs Universiteti, Sofiya Universiteti, İoan Kuza Universiteti | 26 fevral, 2025-ci il, Türkiyə, Bolqarıstan, Rumıniya | Seminar | "Azərbaycan multikulturalizmi" fənninin tədris olunduğu hər üç universitetdə Xocalı Soyqırımının 33-cü ildönümü ilə əlaqədar olaraq xarici tələbələr üçün təşkil olunan seminarlarda faciənin XX əsrin sonlarında həyata keçirilmiş insanlıq əlehinə olan bir cinayət olduğu vurğulanıb. |
| **6.** | "Müxtəliflik və bərabərlik: İnklüziv gələcəyin qurulması" adlı XVI Beynəlxalq Multikulturalizm Məktəbi təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 3-10 mart, 2025-ci il, Bakı, Quba, Qusar | Beynəlxalq Qış Məktəbi | XVI Beynəlxalq Multikulturalizm Məktəbində Azərbaycan, Rusiya, Bolqarıstan, Braziliya, Serbiya, Rumıniya, Özbəkistan, Qazaxıstan, Gürcüstan, İraq, Moldova, Türkiyə, Yaponiya, Polşa, Cənubi Koreya, Zimbabve, Çin, Yəmən, Pakistan, Mərakeş və Mozambikdən olan 25 tələbə iştirak edib. İştirakçılar "Azərbaycanda dini müxtəliflik və ənənəvi birgəyaşayış", "Azərbaycan cəmiyyətinin |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | formalaşmasında multikulturalizm faktoru”, “Müxtəliflik və Konstitusiya – Azərbaycanda multikultural cəmiyyətin inkişafının aspektləri” mövzularında məruzələr dinləyiblər. Qış Məktəbi çərçivəsində tələbələr Azərbaycanın dövlət xadimləri, ictimai və din xadimləri ilə görüşmüş və həm Bakı şəhərində, həm də Quba və Qusarda dini-mədəni abidələri ziyarət ediblər. |
| **7.** | Avropa İnkişaf və Araşdırmalar Akademiyası (EDARA), ICESCO, BBMM və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə “Belçika və Avropada 2025 İslam Dünyası İli” çərçivəsində “Multikulturalizm modelləri – Münasibətlərin qurulması və sülh şəraitində birgəyaşayış modelləri haqqında düşüncələr” konfrans keçirilmişdir. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ICESCO, Qafqaz Müsəlmanları İdarəsi, Avropa İnkişaf və Araşdırmalar Akademiyası (EDARA) | 6-7 mart, 2025-ci il, Brüssel şəhəri | Beynəlxalq konfrans | Konfransda eyni zamanda “Dialoqun və qarşılıqlı anlaşmanın təşviqi: Multikulturalizm modelləri müasir multikultural dünyamızda siyasət kimi” mövzusunda panel müzakirə təşkil olunub. Brüssül şəhərində yerləşən BMT-nin Qadınlarla İş Ofisində xüsusi panel müzakirələr təşkil olunub. Səfər çərçivəsində mart ayının 6-da Avropa |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | İttifaqı Parlamentinin üzvü, Asiya ölkələri ilə qrupun rəhbəri, Belçikanın Səhiyyə Naziri Volter Beke ilə Azərbaycan nümayəndə heyəti arasında görüş də keçirilib. |
| **8.** | ABŞ-da yerləşən İsa Məsihin Son Günlər Müqəddəsləri Kilsəsinin Mərkəzi Avropa və Avrasiya üzrə prezidenti Cek Noel Gerard və Kilsənin nümayəndəsi Pol Pikard ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 11 mart, 2025-ci il, Bakı şəhəri | Görüş | Görüş zamanı Mərkəzin icraçı direktoru Rəvan Həsənov qonaqlara Azərbaycan multikulturalizm modeli və Mərkəzin layihələri haqqında ətraflı məlumat verilib. |
| **9.** | Avropa Komissiyası və Avropa Şurasının birgə təşkilatçılığı ilə Brüsseldə keçirilən müsəlmanlara qarşı nifrət/irqiçilik üzrə əlaqələndirmə konfransında iştirak edilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Avropa Komissiyası, Avropa Şurası | 15 mart, 2025-ci il, Brüssel şəhəri | Beynəlxalq konfrans | 15 Mart – İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü ərəfəsində keçirilən tədbirə Avropa Şurasına üzv dövlətlərdən mövzu üzrə ixtisaslaşmış ekpertlər qatılıblar. Konfransda BBMM-in icraçı direktoru Rəvan Həsənov İslamofobiya ilə mübarizədə Azərbaycanın təşəbbüsləri mövzusunda məruzə ilə çıxış edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **10.** | Almaniya Parlamentinin nümayəndəsi Niko Tippelt ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 18 mart, 2025-ci il, Bakı şəhəri | Görüş | BBMM-in icraçı direktoru Rəvan Həsənov qonağa Azərbaycandakı multikultural və tolerant mühit, prezident İlham Əliyev tərəfindən aparılan multikulturalizm siyasəti, eləcə də Azərbaycan multikulturalizm modeli haqda məlumat verib. |
| **11.** | İsrailin “IMPACT-se” Məktəb Təhsilində Sülh və Mədəni Tolerantlığın Monitorinqi İnstitutunun baş direktoru Markus Şeff ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 7 aprel 2025-ci il, Bakı şəhəri | Görüş | Görüş zamanı qonağa Azərbaycan təhsil sistemində tədris olunan multikulturalizm fənni haqqında ətraflı məlumat verilib. Qonaq tərəfindən gələcəkdə təhsildə ayrı-seçkiliyə qarşı mübarizə aparılmasında birgə əməkdaşlıq edilməsi təklif olunub. |
| **12.** | İspaniyanın Coudenhove-Kalergi Avropa Cəmiyyətinin vitse-prezidenti cənab Karlos Uriarte Sançez ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 7 aprel, 2025-ci il, Bakı şəhəri | Görüş | Ölkəmizdə səfərdə olan qonağa Azərbaycan multikulturalizm modeli haqqında ətraflı məlumat verilmiş və gələcək əməkdaşlıq məsələləri müzakirə olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **13.** | “Azərbaycanda xristianlıq: tarix və müasirlik” adlı XII beynəlxalq elmi konfrans keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Alban-Udi Xristian Dini İcması, A.A.Bakıxanov adına Tarix İnstitutu, Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacdakı Səfirliyi | 10 aprel, 2025-ci il, Vatikan | Beynəlxalq konfrans | Müqəddəs Taxt-Tacın Vatikan Qriqorian Pontifik Universitetində keçirilən beynəlxalq elmi konfransda Azərbaycanlı alimlərlə yanaşı Müqəddəs Taxt-Tac, Türkiyə, Qazaxıstan, Özbəkistan, Cənubi Koreya, Rusiya, Polşa, İtaliya, Gürcüstan, Almaniya, Fransa, Kanada, ABŞ və Litvadan olan albanşünas mütəxəssislərin məruzələri dinlənilib. Qeyd olunan beynəlxalq elmi konfrans ənənəvi olaraq hər il keçirilir və Azərbaycanın xristianlıq irsinin, xüsusi ilə Qədim Qafqaz Albaniyası irsinin öyrənilməsinə həsr olunur. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **14.** | “Sülhün qorunmasında mədəniyyətlərarası dialoq və təhsilin rolu” mövzusunda beynəlxalq elmi konfrans təşkil olunmuşdur. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Baskervill İnstitutu, Azərbaycan İlahiyyat İnstitutu, Stirlinq Fondu, Səmərqənd Regional İdarəsi, Mərkəzi Asiya və Qafqaz İnstitutu, Briqam Younq Universiteti | 28 aprel, 2025 -ci il, Səmərqənd şəhəri | Beynəlxalq elmi konfrans | Özbəkistan Respublikasının Səmərqənd şəhərində “Sülhün qorunmasında mədəniyyətlərarası dialoq və təhsilin rolu” mövzusunda təşkil olunmuş beynəlxalq elmi konfransda Azərbaycan, ABŞ, Özbəkistan, İran, Qazaxıstandan olan alimlərin çıxışları olmuşdur. Beynəlxalq elmi konfransın “Din sülh quruculuğunun əsası kimi: potensial və problemlərin həlli yolları” panel iclasında BBMM-in icraçı direktoru Rəvan Həsənovun moderatorluğu ilə müzakirələr aparılıb. |
| **15.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) arasında Anlaşma Memorandumu imzalanıb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ICESCO | 1 may, 2025-ci il, Bakı şəhəri | Anlaşma memorandumu | Sənədin məqsədi multikultural dəyərlərin təşviqi, təhsil və mədəniyyət sahəsində birgə layihələrin həyata keçirilməsi, eləcə də islam dünyasında dialoq və qarşılıqlı anlaşmanın gücləndirilməsidir. Həmçinin əməkdaşlıq sülh şəraitində |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | birgəyaşayışı təşviq etməyə, mədəniyyətlərarası və nəsillərarası dialoqu inkişaf etdirməyə, İslam Dünyasında və ondan kənarda gənclərin liderlik sahəsində gücləndirilməsinə yönəlib. Memoranduma əsasən hər iki təşkilat öz imkanlarından istifadə edərək təsirli proqramlar yaratmaq və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, liderliyi gücləndirmək və qlobal miqyasda sülhü irəli aparmaq üçün birgə fəaliyyət göstərməcək. |
| **16.** | "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda VIII Beynəlxalq elmi konfrans keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dillər Universiteti | 6 may, 2025-ci il, Bakı şəhəri | Beynəlxalq Konfrans | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan beynəlxalq konfransda Azərbaycanlı alimlərlə yanaşı Türkiyə, ABŞ, Belarus, Almaniya, İtaliya kimi ölkələrdən 40-dan çox alim iştirak edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **17.** | “Azərbaycanşünaslığın aktual məsələləri: Yeni dövrün Azərbaycanı” XVI Beynəlxalq elmi konfransda iştirak olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bakı Slavyan Universiteti | 7 may, 2025-ci il, Bakı | Beynəlxalq Konfrans | Bakı Slavyan Universitetində keçirilən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş beynəlxalq konfransda BBMM-in icraçı direktoru Rəvan Həsənov məruzə ilə çıxış edib. |
| **18.** | “Davamlı sülhün əldə edilməsində dini liderlərin rolu” mövzusunda beynəlxalq konfransda iştirak olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi (Qazaxıstan) | 22 may, 2025-ci il, onlayn (real vaxt rejimində) | Beynəlxalq konfrans | BBMM-in müşaviri, professor Aytən Qəhrəman beynəlxalq konfransda məruzə ilə çıxış edib. Azərbaycan multikulturalizm modeli və təcrübəsi haqqında məlumat verib. |
| **19.** | “İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq elmi konfrans keçirilib. | **BBMM**, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Bakı Təşəbbüs Qrupu, G20 Dinlərarası Forumu (IF20), İƏT, ICESCO, Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzi (DICID), İnsan Qardaşlığının Ali Komitəsi, | 26-27 may, 2025-ci il, Bakı şəhəri | Beynəlxalq konfrans | Konfransda 40-dan çox ölkədən 220 alim, ekspert, din xadimi və jurnalistlər təmsil olunub. “Euronews”, “Haber Global”, “TRT World”, “Al Jazeera”, “Al Araby TN”, “Anadolu Ajansı”, Anewz, “UNA” - İƏT Xəbər Agentlikləri İttifaqı xarici media tərəfdaşlarımız sırasında yer alıb. Tədbiri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | Müsəlman Ağsaqqallar Şurası, Almaniya Müsəlmanlarının Mərkəzi Şurası, EULEMA - Avropa Müsəlman Liderləri Məclisi, Beynəlxalq Müsəlman Forumu | | | 200-dən çox xarici mediada işıqlandırıb. |
| **20.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə İnsan Qardaşlığı Ali Komitəsi arasında görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 27 may, 2025-ci il, Bakı şəhəri | Görüş | Görüş zamanı hər iki qurum bir çox layihələr istiqamətində qarşılıqlı əməkdaşlıq etmək haqqında razılığa gəlib. |
| **21.** | Mərakeş Krallığının nüfuzlu media orqanlarının rəhbərləri ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 3 iyul, 2025-ci il, Bakı şəhəri | Görüş | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə 2-8 iyul tarixlərində Mərakeşin nüfuzlu media orqanlarının nümayəndə heyətindən ibarət qrupun ölkəmizə səfəri çərçivəsində baş tutan görüşdə Mərkəzin icraçı direktoru Rəvan Həsənov Azərbaycan multikulturalizm modeli haqqında qonaqlara ətraflı məlumat verib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **22.** | Qahirədə Misir-Azərbaycan Dostluq Cəmiyyətində Azərbaycanda multikulturalizm mövzusunda seminar keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 8 iyul, 2025-ci il, Qahirə şəhəri (Misir) | Beynəlxalq elmi seminar | BBMM-in icraçı direktoru Rəvan Həsənov Misirli tələbələr üçün Azərbaycan multikulturalizm siyasəti mövzusunda mühazirə oxuyub. |
| **23.** | "İslamofobiya: Mövcud qlobal kontekstdə konsepsiya və təcrübə" adlı beynəlxalq konfransda iştirak olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Ərəb Dövlətləri Liqası, ICESCO | 8 iyul, 2025-ci il, Qahirə şəhəri (Misir) | Beynəlxalq Konfrans | Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində - Ərəb Dövlətləri Liqasının baş ofisində keçirilən beynəlxalq konfrans Ərəb Dövlətləri Liqası və ICESCO -nun birgə təşkilatçılı ilə keçirilmişdir. Konfransda çıxış edən BBMM-in icraçı direktoru Rəvan Həsənov Azərbaycanın İslamofobiya ilə mübarizədə atdığı addımlar, eyni zamanda ayrı-seçkiliyə qarşı mübarizə siyasəti haqqında məruzə ilə çıxış edib. |
| **24.** | Misirin Baş müftisi, Ümumdünya Fətva Evləri və Heyətləri Baş Katibliyinin sədri Nəzir Məhəmməd Əyadla görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 9 iyul, 2025-ci il, Qahirə şəhəri (Misir) | Görüş | Misirin Baş müftisi ölkəsi ilə Azərbaycan arasında mövcud olan dərin tarixi və qardaşlıq əlaqələrinə toxunub, BBMM-in elmi və |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | intellektual forumlar vasitəsilə birgəyaşayış dəyərlərinin möhkəmləndirilməsi və nifrət, ekstremizm kimi çağırışlara qarşı mübarizə sahəsində oynadığı fəal rolu yüksək qiymətləndirib. |
| **25.** | “Beynəlxalq İnsan Qardaşlığı” konfransında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 4 avqust, 2025-ci il, Cakarta şəhəri (İndonesiya) | Beynəlxalq elmi konfrans | BBMM-in Layihələr şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru İrina Kunina İndoneziyanın paytaxtı Cakarta şəhərində keçirilən “Beynəlxalq İnsan Qardaşlığı” konfransında iştirak edib. O, çxışında Azərbaycanın multikulturalizm modelindən bəhs edib, bu sahədə əldə olunan təcrübəni iştirakçılarla bölüşüb. BBMM-in fəaliyyəti barədə məlumat verib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **26.** | “Fəaliyyətdə humanizm: Həssas icmalar diqqət mərkəzində” mövzusuna həsr G20 Dinlərarası Dialoq Forumunda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, G20 Dinlərarası Dialoq Forumu | 10-14 avqust, 2025-ci il, Keyptaun şəhəri (Cənubi Afrika Respublikası) | Beynəlxalq konfrans | Forumun “Həmrəylik üçün təhsil: Mədəniyyətlərarası dini savadlılıq, humanizm və dini gərginliklə, zorakılıqla mübarizə” mövzusuna həsr olunan panel iclasında BBMM-in icraçı direktoru Rəvan Həsənov çıxış edib. Qeyd edək ki, G20 Dinlərarası Dialoq Forumu G20 Sammitləri ərəfəsində keçirilən və bir neçə ildir davamlı fəaliyyət göstərən nüfuzlu dinlərarası qlobal platformadır. |
| **27.** | Keyptaun şəhərində keçirilən G20 Dinlərarası Dialoq Forumunda Azərbaycan nümayəndə heyəti Müsəlman Ağsaqqallar Şurasının sədrinin müşaviri Adama Dienq, Özbəkistan Prezidentinin müşaviri Ruslanbek Davletov və Özbəkistan Beynəlxalq İslam Akademiyasının rektoru Müzəffər Kamilov, Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzinin sədri İbrahim Saleh Əl-Naimi ilə görüşüb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi | 12 avqust, 2025-ci il, Keyptaun şəhəri (Cənubi Afrika Respublikası) | Görüş | Görüşlər zamanı qarşılıqlı əməkdaşlıq imkanları, Regiondakı yeni geosiyasi reallıqlar, Azərbaycan dövlətinin sülhyaratma təşəbbüsləri haqqında ətraflı müzakirələr aparılıb. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **28.** | “Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi” mövzusunda 2-ci Beynəlxalq Gənclər Forumu keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ICESCO | 22-27 avqust, 2025-ci il, Bakı, Xankəndi, Şuşa şəhərləri | Beynəlxalq Forum | Beynəlxalq Multikulturalizm Gənclər Forumuna dünyanın 50-dən çox ölkəsindən 70-dək iştirakçı qatılmışdır. Bakı, Xankəndi və Şuşa şəhərlərində təşkil edilmiş Forum çərçivəsində panel müzakirələri, interaktiv sessiyalar və təlim proqramlarının təşkil olunub. İştirakçılar eyni zamanda Azərbaycanın işğaldan azad edilən tarixi torpaqlarında mədəni irsin vəziyyəti və aparılan quruculuq işləri ilə yaxından tanış olublar. Qeyd edək ki, Beynəlxalq Multikulturalizm Gənclər Forumu – müxtəlif millətlərdən, dinlərdən və mədəniyyətlərdən olan gəncləri bir araya gətirən, multikultural dəyərlərin təşviqi, qarşılıqlı anlaşma və tolerantlığın gücləndirilməsi məqsədi daşıyan ictimai platformadır. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **29.** | Anewz Televiziyası tərəfindən hazırlanan İraq Türkmənlərinə həsr edilən sənədli filmin hazırlanmasında BBMM yaxından iştirak edib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Anewz Televiziyası | 22-30 avqust, 2025-ci il, Ərbil, Kərkük, Bağdad şəhərləri | Sənədli film | Filmin senarisinin ərsəyə gəlməsi və çəkilişlərinin uğurla həyata keçirilməsi məqsədi ilə Mərkəzin baş məsləhətçisi Araz Qurbanov layihəyə cəlb edilib və İraq Respublikasına ezam olunub. |
| **30.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Venesiya Film Festivalı çərçivəsində “Birləşdirən bağlar: Anlaşmaya və insan qardaşlığına səyahət” mövzusunda Forumda təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, İnsan Qardaşlığının Ali Komitəsinin (HCHF) | 30 avqust – 1 sentyabr, 2025-ci il, Venesiya şəhəri (İtaliya) | Beynəlxalq Forum | Tədbirdə kino və mədəniyyətin fərqliliklərin aradan qaldırılmasında oynadığı rol müzakirə olunub. BBMM-in icraçı direktoru Rəvan Həsənov Forumda məruzə ilə çıxış edib. Forumun İnsan Qardaşlığı Ali Komitəsinin baş müşaviri Malayziya Universitetinin dosenti Herizal Hazrinin moderatorluğu ilə keçən panelində Rəvan Həsənovala yanaşı UNESCO-nun elm, texnologiya və sahibkarlıq üzrə xoşməramlı səfiri, Malinin sabiq icraçı baş naziri Çeyk Modibo Diarra, |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Sülh üzrə Nobel Laureatlarının Dünya Sammitinin Daimi Katibliyinin sədri Yekaterina Zagladina, Gürcüstanın keçmiş iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Ketevan Bochorishvili də çıxış edib, müzakirələr aparılıb. |
| **31.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) ilə Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən İnsan Qardaşlığı Ali Komitəsi arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanıb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, İnsan Qardaşlığının Ali Komitəsinin (HCHF) | 1 sentyabr, 2025-ci il, Venesiya şəhəri (İtaliya) | Anlaşma memorandumu | Memoranduma əsasən tərəflər informasiya və nəşrlərin mübadiləsini aparacaq, gənclərin təşəbbüslərinin dəstəklənməsi, mədəniyyətlərarası mübadilə proqramlarının hazırlanması və potensialın artırılmasına dair təlimlərin təşkili istiqamətində əməkdaşlıq edəcəklər. Bundan başqa, |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | birgə beynəlxalq konfranslar, seminarlar və maarifləndirici kampaniyalar keçirəcəklər. İki il müddətinə imzalanan memorandum həmçinin BBMM-in akademik şəbəkəsi vasitəsilə insan qardaşlığına dair tədqiqatların təşviqini və nəticələrin monitorinq mexanizmlərinin hazırlanmasını nəzərdə tutur. |
| **32.** | Almaniyanın "Əsas dəyərlər və xalqlararası anlaşma fondu"nun İdarə Heyətinin sədri Erix Alfred Tilo Braun və icraçı direktor Folker Brext ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 2 sentyabr, 2025-ci il, Bakı şəhəri | Görüş | Görüş zamanı qonaqlara Azərbaycanın multikulturalizm siyasəti, Mərkəzin həyata keçirdiyi layihələr və gələcək əməkdaşlıq imkanları müzakirə olunub. |
| **33.** | "Dinlərarası və mədəniyyətlərarası dialoqun əsasları: Qlobal perspektivlər" mövzusunda vebinarda iştirak heyətə keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Multikultural Əməkdaşlıq naminə Beynəlxalq Akademiya | 16 sentyabr, 2025-ci il, Online (real vaxt rejimi) | Beynəlxalq Vebinar | Vebinarda müxtəlif ölkələrdən tanınmış alimlər, eyni zamanda Mərkəzin icraçı direktoru Rəvan Həsənov məruzə ilə çıxış edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **34.** | "Qara dəniz və Xəzər hövzəsi: Tarix, ənənələr və multikultural perspektivlər" mövzusunda Beynəlxalq Yay Məktəbi keçirilmişdir. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Aleksandr İohan Kuza Universiteti, Yassı Şəhər İcra Hakimiyyəti | 8-13 sentyabr, 2025-ci il, Yassı şəhəri, (Rumıniya) | Beynəlxalq Yay Məktəbi | Qeyd edək ki, Mərkəzin önəmli layihələrindən biri olan və mütəmadi olaraq ildə iki dəfə təşkil edilən beynəlxalq multikulturalizm məktəbi ilk dəfə olaraq Azərbaycandan kənarda həyata keçirilib. Yay məktəbi "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Layihənin məqsədi xarici və yerli universitetlərdə Azərbaycan multikulturalizmini öyrənən tələbələrin nəzəri biliklərinin multikultural və tolerant dəyərlərin qorunduğu ölkəmizdə əyani şəkildə tanış olmalarına şərait yaratmaqdır. Yay Məktəbində məktəbdə Rumıniya, Azərbaycan, Moldova, Bolqarıstan, Gürcüstan, Ukrayna və Türkiyədən olan tələbə və araşdırmaçılar iştirak edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **35.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi "Dünya və ənənəvi dinlərin liderlərinin VIII Qurultayı"nda təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 17-18 sentyabr, 2025-ci il, Astana şəhəri (Qazaxıstan) | Beynəlxalq Forum | Qazaxıstan Prezidenti cənab Qasım-Jomart Tokayevin sədrliyi ilə keçən Qurultay "Dinlərin dialoqu: Gələcək üçün sinerji" mövzusuna həsr olunub. Qurultayda dünyanın 60 ölkəsindən 100-dən çox nümayəndə heyəti iştirak edib. |
| **36.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Qazaxıstanın Beynəlxalq Konfessiyalararası və Dinlərarası Dialoq Mərkəzi arasında Anlaşma Memorandumunun imzalanmışdır. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Konfessiyalararası və Dinlərarası Dialoq Mərkəzi | 18 sentyabr, 2025-ci il, Astana şəhəri (Qazaxıstan) | Anlaşma memorandumu | Memorandumun məqsədi dini və mədəni müxtəlifliyin qorunması, ictimai həmrəylik və birliyin möhkəmləndirilməsi istiqamətində qarşılıqlı fəaliyyətin təşkilidir. Memoranduma əsasən, birgə tədqiqat layihələri, elmi seminarlar, konfranslar və dəyirmi masaların təşkili, dinlərarası münasibətlərin inkişafı sahəsində təcrübə və metodoloji yanaşmaların mübadiləsi, dövlət qurumları üçün proqnoz və tövsiyələrin hazırlanması, elmi əməkdaşlar üçün təcrübə proqramlarının təşkili nəzərdə tutulur. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **37.** | Çin Xalq Respublikasının Milli Etnik İşlər Komissiyasının (NEAC) nümayəndə heyətinin Azərbaycana səfəri təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 22-26 sentyabr, 2025-ci il, Bakı şəhəri | Nümayəndə heyətinin səfəri | Səfər çərçivəsində qonaqlar BBMM, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Mədəniyyət Nazirliyi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində rəsmi görüşlərdə olub və eyni zamanda Bakı şəhərində müxtəlif dini-tarixi yerləri ziyarət ediblər. |
| **38.** | Özbəkistan Dövlət Dünya Dilləri Universiteti nəzdində fəaliyyət göstərən Beynəlxalq Perspektivli Tədqiqatlar İnstitutunun Strateji Kommunikasiyalar Mərkəzinin rəhbəri Nargiza Umarova, Enerji Diplomatiyası və Geosiyasət Mərkəzinin rəhbəri Hayotjon İbrahimov, Əl-Farabi adına Qazaxıstan Milli Universitetinin Beynəlxalq münasibətlər və dünya iqtisadiyyatı kafedrasının dosentləri Adilbek Yermekbayev və Jekenov Duman Kurmangaziyeviç ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 1 oktyabr, 2025-ci il, Bakı şəhəri | Görüş | STEM Analitik Mərkəzinin dəvəti ilə Azərbaycanda səfərdə olan Özbəkistan və Qazaxıstanın aparıcı ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin ekspertlərindən ibarət nümayəndə heyətinə Azərbaycanın tolerantlıq və multikulturalizm dəyərləri haqqında, eyni zamanda Mərkəzi fəaliyyəti haqqında geniş məlumat verilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **39.** | Amerika Birləşmiş Ştatlarına səfər çərçivəsində İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin prezidenti Dallin Oks və G20 Dinlərarası Dialoq Forumunun prezidenti Kol Durhamla görüş təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi | 4 oktyabr, 2025-ci il, Yutah ştatı (ABŞ) | Görüş | Görüş zamanı Kilsənin yeni seçilmiş prezidenti Azərbaycanla kilsə arasında əməkdaşlığa önəm verdiklərini və cari ildə kilsənin ölkəmizdə qeydiyyata alınmasına görə təşəkkürlərini bildirdi. G20 Platformasının prezidenti prof. Kol Durham isə Mərkəz ilə G20 forumunun sıx əməkdaşlığını vurğulayaraq gələcək birgə layihələr istiqamətində fikirlərini bildirdi. |
| **40.** | ABŞ-nin Yuta Ştatının Baskerville İnstitutunda “Multikulturalizm ürək diplomatiyasının təməli kimi” mövzusunda seminar təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Baskerville İnstitutu | 5oktyabr, 2025-ci il, Yutah ştatı (ABŞ) | Seminar | BBMM-in icraçı direktoru Rəvan Həsənov ABŞ-nin Yuta Ştatının Baskerville İnstitutunda “Multikulturalizm ürək diplomatiyasının təməli kimi” mövzusunda seminar keçib. Hüquq, ədalət və mədəni diplomatiyaya həsr olunan seminar Baskerville İnstitutunun “Ürəklərin diplomatiyası” təşəbbüsü çərçivəsində təşkil olunub. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **41.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində Yuta Ştatının Senat sədri Adam Stüart ilə görüşüb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi | 6 oktyabr, 2025-ci il, Bakı şəhəri | Görüş | Görüş Azərbaycan nümayəndə heyəti ilə keçirilib. Görüşdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxül-islam Allahşükür Paşazadə, millət vəkili Cavanşir Paşazadə də iştirak edib. |
| **42.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Azərbaycan nümayəndə heyətinin tərkibində Vaşinqtona rəsmi səfəri çərçivəsində Birləşmiş Ştatların Beynəlxalq Din Azadlığı Komissiyasının (USCIRF) sədri Vicky Hartzler, sədrin müavini Asif Mahmood, komissarı Mohamed Elsanousi və digər əməkdaşlarla görüşüb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı Səfirliyi | 8 oktyabr, 2025-ci il, Vaşinqton şəhəri (ABŞ) | Görüş | Görüşdə Mərkəzin icraçı direktoru Rəvan Həsənov, Qafqaz müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Milli Məclisinin deputatı Cavanşir Paşazadə, Azərbaycanın ABŞ-dəki Fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim, Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili idə iştirak ediblər. Görüşdə Azərbaycanda dini etiqad azadlığının mövcud vəziyyəti, Azərbaycanın qlobal dinlərarası dialoq təşəbbüsləri, xüsusilə islamofobiya ilə mübarizədə göstərdiyi əhəmiyyətli rol barədə danışılıb. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **43.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Azərbaycan nümayəndə heyətinin tərkibində Vaşinqtona rəsmi səfəri çərçivəsində Ağ Evdə Vitse-prezident Ofisinin Milli Təhlükəsizlik məsələləri üzrə xüsusi müşaviri Endryu Lumis, Vitse-prezident Ofisinin Strateji məsələlər üzrə xüsusi müşaviri Maykl İmbrenda və Dövlət Departamentinin Siyasət Planlaşdırma İdarəsinin üzvü Conatan Askonas ilə görüşüb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı Səfirliyi | 9 oktyabr, 2025-ci il, Vaşinqton şəhəri (ABŞ) | Görüş | Görüşdə Mərkəzin icraçı direktoru Rəvan Həsənov, Qafqaz müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Milli Məclisinin deputatı Cavanşir Paşazadə, Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili idə iştirak ediblər. Görüş zamanı işğaldan azad olunmuş tarixi torpaqlarımızda erməni işğalı nəticəsində dağıdılmış, təhqir edilmiş və məqsədyönlü şəkildə mənimsənilmiş mədəni irsimizlə bağlı məsələlər də diqqətə çatdırılıb. Vurğulanıb ki, sülh prosesinin davamlı olması üçün qarşılıqlı etimadın möhkəmləndirilməsi və dialoqun dəstəklənməsi vacibdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **44.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Azərbaycan nümayəndə heyətinin tərkibində Nyu York şəhərinə rəsmi səfəri çərçivəsində Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş ilə görüşüb. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı Səfirliyi | 13 oktyabr, 2025-ci il, Nyu York şəhəri (ABŞ) | Görüş | BMT-nin Baş Qərargahında keçirilən görüşdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, BBMM-in icraçı direktoru Rəvan Həsənov, Milli Məclisinin deputatı Cavanşir Paşazadə, Azərbaycanın ABŞ-dəki Fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim, Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Tofiq Musayev iştirak ediblər. Görüş zamanı BMT-nin baş katibinə Azərbaycandakı multikultural mühit, mədəniyyətlərarası və dinlərarası dialoq haqda məlumat verilib. |
| **45.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Azərbaycan nümayəndə heyətinin tərkibində Nyu York şəhərinə rəsmi səfəri çərçivəsində Birləşmiş Millətlər Təşkilatının (BMT) İslamofobiya məsələləri üzrə xüsusi nümayəndəsi, BMT | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycanın Amerika Birləşmiş | 13 oktyabr, 2025-ci il, Nyu York şəhəri (ABŞ) | Görüş | BMT-nin Sivilizasiyalar Alyansının ofisində keçirilən görüşdə nümayəndə heyətinin rəhbəri Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, BBMM-in icraçı direktoru Rəvan Həsənov, |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos ilə görüşüb. | Ştatlarındakı Səfirliyi | | | Milli Məclisinin deputatı Cavanşir Paşazadə, Azərbaycanın ABŞ-dəki səfiri Xəzər İbrahim, Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Tofiq Musayev iştirak ediblər. Görüş zamanı Azərbaycanda formalaşmış multikultural və tolerant mühit, müxtəlif dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət və anlayışa əsaslanan münasibətlər, eləcə də dövlətin bu dəyərlərin qorunmasına və inkişafına verdiyi dəstək barədə ətraflı məlumat verilib. |
| **46.** | Finlandiyanın Helsinki Universitetinin “HALS” (Helsinki Area & Language Studies) dilçi tədqiqat qrupu ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 22 oktyabr, 2025-ci il, Bakı şəhəri | Görüş | Görüş zamanı Azərbaycanda yaşayan xalqların dillərinin qorunması istiqamətində həyata keçirilən siyasət və Mərkəzin azsaylı xalqların dillərində həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat verilib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **47.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Qafqaz Kürdlərinin II Elmi-Praktiki Beynəlxalq Konfransında iştirak etmişdir. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 25 oktyabr, 2025-ci il, Tiflis şəhəri (Gürcüstan) | Beynəlxalq konfrans | “Milli quruculuqda Qafqaz kürdlərinin rolu” mövzusuna həsr olunan konfrans “Ronahi” Gürcüstan Kürdləri Assosiasiyası, Qafqaz Kürd İnstitutu, Kürdüstan “Revend” Diaspor Konfederasiyası, Barzani Qərargahı və Kinyaz Mirzoyev Fondu tərəfindən təşkil olunub.<br>Tədbirdə Mərkəzi icraçı direktorunun müavini Ramin Qəmbərov təmsil edib. |
| **48.** | “Tarixdən bugünə Azərbaycanın multikultural kimliyi” mövzusunda beynəlxalq vebinar təşkil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Almaniyanın Medina Fondu | 4 noyabr, 2025-ci il, Online (real vaxt rejimində) | Beynəlxalq vebinar | Vebinarda Azərbaycandan olan mütəxəssislərlə yanaşı, Almaniya və Türkiyədən də alimlər və ictimai xadimlər iştirak etmişdir. Vebinarda Mərkəzin analitika şöbəsinin müdiri Dr. Rəşad İlyasov "Azərbaycanın multikultural kimliyi" mövzusunda məruzə ilə çıxış edib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **49.** | Pakistanın Müsəlman İnstitutunda, Yaponiyanın Hokkaydo, Türkiyənin Ərciyəz, Bolqarıstanın K.Oxridski adına Sofiya, Rumıniyanın Aleksandr İoan Kuza, Moldovanın Dövlət Pedaqoji universitetlərində 8 Noyabr – Zəfər Gününə həsr edilən silsilə tədbirlər keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 7-8 noyabr, 2025-ci il, İslamabad, Hokkaydo, Ərciyəs, Sofiya, Yassı, Kişinov şəhərləri | Beynəlxalq seminar | 44 günlük "Vətən müharibəsi"ndəki qələbəmizin 5-ci il dönümünə həsr olunan silsilə tədbirlər Mərkəzin təşəbbüsü ilə xarici tələbələr və alimlər üçün təşkil edilib. Seminarlarda işğaldan azad edilmiş ərazilərimizdə son 5 ildə görülən quruculuq işləri, minalardan ərazilərin təmizlənməsi, tarixi-mədəni irsimizin bərpa olunması kimi mövzulara xüsusi ilə toxunulub. |
| **50.** | Amerika Birləşmiş Ştatlarının Sionist Ravvinlər Koalisiyasının sədri ravvin Stüart Vaynblattın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 13 noyabr, 2025-ci il, Bakı şəhəri | Görüş | Nümayəndə heyətinin tərkibində ABŞ-ın əksər ştatlarından olan yəhudi icmalarının rəhbərləri təmsil olunurdu. Görüş zamanı Mərkəzin icraçı direktoru Azərbaycanın multikulturalizm siyasəti, ölkəmizdə mövcud olan yəhudi irsi və icmaları haqqında məlumat verilib. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **51.** | "Süni intellek və mədəni müxtəliflik: Universal etika axtarışında" mövzusunda onlayn beynəlxalq dəyirmi masa təşkil edilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qazaxıstanın Beynəlxalq Konfessiyalararası və Dinlərarası Dialoq Mərkəzi | 19 noyabr, 2025-ci il, Online (real vaxt rejimi) | Dəyirmi masa | Tədbirdə Qazaxıstan, Azərbaycan, Böyük Britaniya, Argentina, Misir və digər ölkələrdən mütəxəssislərin məruzələri dinlənilib.<br>Çıxış edən mütəxəssislər süni intellektin müxtəlif mədəniyyətlər arasında qarşılıqlı anlaşma və dialoqa töhfə vermək potensialından söz açaraq, bu texnologiyalardan istifadə zamanı məsuliyyət, şəffaflıq və ədalət prinsiplərinin önəmini vurğulayıblar.<br>Mərkəzin icraçı direktoru Rəvan Həsənov məruzə ilə çıxış edib. |
| **52.** | "Beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsində BMT-nin Sivilizasiyalar Alyansının rolunun aktivləşdirilməsi" mövzusunda Tunis Beynəlxalq Simpoziumunda iştirak həyata keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 20 noyabr, 2025-ci il, Tunis | Beynəlxalq konfrans | Simpoziumda BBMM-in Layihələr şöbəsinin müdiri dosent İrina Kunina "Azərbaycan modeli və sivilizasiyaların dialoqu" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə diqqətə çatdırılıb ki, Azərbaycanın multikulturalizm modeli |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | multikultural dəyərlər, dini dözümlülük və sivilizasiyalararası dialoqun qorunması baxımından dünyada nümunəvi təcrübə kimi qəbul olunur. |
| **53.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Şuşa şəhərində keçirilən Azərbaycan–Türkiyə Beyin Mərkəzlərinin Birinci Forumunda təmsil olunub. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, SAM | 24-25 noyabr, 2025-ci il , Şuşa şəhəri | Beynəlxalq Forum | Forumda BBMM-in icraçı direktoru Rəvan Həsənovun moderatorluğu ilə forumun "Azərbaycan–Türkiyə münasibətlərində nəqliyyat-kommunikasiya və enerji tərəfdaşlığı" mövzusuna həsr olunan sessiya iclasında müzakirələr aparılıb. |
| **54.** | İon Krıange adına Kişinyov Dövlət Pedaqoji Universitetinin rektoru professor Aleksandra Barbaneaqranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 9 dekabr | Görüş | Görüş zamanı gələcəkdə əməkdaşlıq imkanları, Azərbaycan multikulturalizm fənninin Kişinyov Dövlət Pedaqoji Universitetində tədrisi məsələsi müzakirə olunub. |

**III bölmə**

**Tədris**

**I.** 2025-ci ildə ölkəmizdəki və xarici ölkələrdəki ali təhsil müəssisələrində bakalavr səviyyəsində “Multikulturalizmə giriş”, magistratura səviyyəsində isə “Azərbaycan multikulturalizmi” fənləri tədris proqramlarına daxil edilib. 2025-ci ilin sonunadək “Azərbaycan multikulturalizmi” fənni dünyanın 27 və Azərbaycanın 38 nüfuzlu ali məktəbində tədris olunub.

**“Azərbaycan multikulturalizmi” və “Multikulturalizmə giriş” fənlərinin tədrisi layihəsi**

***2025-ci ildə tədrisin təşkil edildiyi xarici universitetlər***

| № | Universitetin adı | Ölkə | Tarix | Tədris aparan şəxs |
|---|---|---|---|---|
| **1.** | Ural Federal Universiteti | Rusiya | yaz | Professor Aleksandr Nesterov |
| **2.** | İon Kryange adına Moldova Dövlət Pedaqoji Universiteti | Moldova | yaz | Professor Ludmila Bejenaru |
| **3.** | İnha Universiteti | Cənubi Koreya | yaz | Leyla Masimli |
| **4.** | Moskva İslam Universiteti | Rusiya | yaz | Səfa Kərimov |
| **5.** | Hokkaydo Universiteti | Yaponiya | payız | Professor Əlibey Məmmədov |
| **6.** | Erciyes Universiteti | Türkiyə | payız | Professor Qafar Mehdiyev |
| **7.** | K.Oxridski adına Sofiya Universiteti | Bolqarıstan | payız | Sofiya Şiqayeva |

| | | | | |
|---|---|---|---|---|
| **8.** | Aleksandr İoan Kuza Universiteti | Rumıniya | payız | Professor Ludmila Bejenaru |
| **9.** | Varşava Universiteti | Polşa | payız | Doktor Şəhla Kazımova |
| **10.** | Paraiba Universiteti | Braziliya | payız | Dosent İrina Kunina |

**Qeyd:** Azərbaycan Respublikasının təhsil nazirinin 19.08.2019-cu il tarixli, F-148 nömrəli əmrinə əsasən ölkədaxili bütün ali təhsil məktəblərində "Multikulturalizmə giriş" fənni bakalavr pilləsi üçün əsas fənn olaraq tədris proqramına daxil edilmişdir. Eyni zamanda "Azərbaycan multikulturalizmi" fənni 38 ölkədaxili universitetdə magistr pilləsində tədris olunur.

**II.** Tədris keyfiyyətinin yüksəldilməsi və müəllimlərin bilik səviyyələrinin artırılması məqsədilə "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənlərini tədris edən müəllimlərə BBMM tərəfindən ildə iki dəfə, yaz və qış semestrində treninqlər təşkil olunub. Treninqi uğurla bitirən müəllimlərə müvafiq sertifikatlar təqdim edilib.

***05.04.2025 - 03.05.2025-ci il tarix aralığında təşkil olunmuş treninqdə aşağıdakı universitetlərdən və kolleclərdən olan müəllimlər iştirak ediblər:***

1. Bakı Dövlət Universiteti
2. Azərbaycan Pedaqoji Universiteti
3. Azərbaycan İdman Akademiyası
4. Kooperasiya Universiteti
5. Azərbaycan Dövlət İqtisad Universiteti
6. Bakı Slavyan Universiteti
7. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
8. Qərbi Kaspi Universiteti
9. Azərbaycan Dövlət Pedaqoji Universiteti (Quba Filialı)
10. Sumqayıt Dövlət Universiteti
11. Quba Dövlət Sosial-İqtisadi Kolleci
12. Quba Soyqırımı Memorial Kompleksi

***Bu treninqdə ümumilikdə 35 müəllim iştirak edib.***

***15.11.2025 - 13.12.2025-ci il tarix aralığında təşkil olunmuş treninqdə aşağıdakı universitetlərdən və kolleclərdən olan müəllimlər iştirak ediblər:***

1. Bakı Dövlət Universiteti
2. Azərbaycan Pedaqoji Universiteti
3. Azərbaycan İdman Akademiyası
4. Kooperasiya Universiteti
5. Azərbaycan Dillər Universiteti
6. Bakı Slavyan Universiteti
7. Odlar Yurdu Universiteti
8. Azərbaycan İlahiyyat İnstitutu
9. Bakı Avrasiya Universiteti
10. ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci
11. Şəki Dövlət Regional Kolleci

***Bu treninqdə ümumilikdə 35 müəllim iştirak edib.***

**III.** Tələbələrin bilik və bacarıq səviyyəsinin müəyyənləşdirilməsi, eyni zamanda onların bu fənnin tədrisi ilə bağlı sual, təklif və iradlarının öyrənilməsi məqsədilə, Azərbaycanın ali təhsil müəssisələrinin bakalavr səviyyəsində tədris edilən "Multikulturalizmə giriş" fənninin monitorinqi aparılıb.

**Layihələr şöbəsinin təşkilatçılığı ilə monitorinqlər yaz semestrində 10.04.2025-ci il tarixindən 28.04.2025-ci il tarixinədək aşağıda adları qeyd olunan universitetlərdə həyata keçirilib:**

1. Bakı Dövlət Universiteti
2. Azərbaycan Tibb Universiteti
3. Odlar Yurdu Universiteti
4. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
5. Azərbaycan Kooperasiya Universiteti

6. Sumqayıt Dövlət Universiteti

**Monitorinqlər qış semestrində 01.11.2025-ci il tarixindən 25.11.2025-ci il tarixinədək aşağıda adları qeyd olunan universitetlərdə həyata keçirilib:**

1. Azərbaycan Texniki Universiteti
2. Bakı Slavyan Universiteti
3. Azərbaycan Dillər Universiteti
4. Bakı Xoreoqrafiya Akademiyası
5. Bakı Qızlar Universiteti

**IV.** Xarici ölkə universitetlərində "Azərbaycan multikulturalizmi" fənninin tədrisi layihəsinin həyata keçirilməsi məqsədi ilə, BBMM regionun bir sıra qabaqcıl ali məktəbləri ilə ikitərəfli danışıqlar aparıb, nəticə olaraq aşağıda adları qeyd olunan ölkələrlə müqavilələrin imzalanması planlaşdırılır.

1. İspaniya (Kral Xuan Karlos adına Universitet) və Almaniyanın bəzi nüfuzlu universitetləri
2. Belqrad Universiteti (Serbiya)
3. Siena Universiteti (İtaliya)

## IV bölmə
## BBMM tərəfindən 2025-ci ildə hazırlanan və çap edilən nəşrlər

| № | Nəşrin adı | Tarix | Nəşrin dili | Qeydlər |
|---|---|---|---|---|
| **1.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin “International Journal of Multiculturalism” (Beynəlxalq Multikulturalizm Jurnalı) adlı beynəlxalq elmi jurnalının iki sayı hazırlanıb və elektron şəkildə həm Mərkəzin rəsmi səhifəsinə, həm müvafiq bazalara, həm də jurnalın öz elektron səhifəsinə yerləşdirilib. | Aprel-dekabr | İngilis dili | Mərkəz tərəfindən ildə iki dəfə olmaqla buraxılan elmi jurnal regionda bu istiqamətdə ilk elmi nəşr sayılır. Bütün beynəlxalq standartlara uyğun olaraq hazırlanan elmi nəşrin redaksiya heyəti bu sahədə tanınmış xarici mütəxəssislərdən formalaşıb. Cari ildən qəbul etdiyimiz qərara əsasən jurnalın fiziki çapını dayandıraraq yalnız elektron formatda yayılmasına üstünlük veririk. Bu həm vəsaitə qənaət etməyə, həm də daha geniş yaylmağa imkanlar verir. |
| **2.** | II İslamofobiya Beynəlxalq Konfransın elmi məqalələri nəşr edilib. | Yanvar | İngilis dili | BBMM-in, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin, Bakı Təşəbbüs Qrupunun, G20 Dinlərarası Forumu (IF20), İƏT, ICESCO, |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzi (DICID), İnsan Qardaşlığının Ali Komitəsi, Müsəlman Ağsaqqallar Şurası, Almaniya Müsəlmanlarının Mərkəzi Şurası, EULEMA - Avropa Müsəlman Liderləri Məclisi və Beynəlxalq Müsəlman Forumunun birgə təşkilatçılığı ilə 32 ölkənin iştirakı ilə “Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü”nə həsr olunmuş elmi konfrans keçirilməkdədir. Konfransın elmi məqalələri hər il ingilis dilində Mərkəz tərəfindən nəşr edilir və geniş yayılır. |
| **3.** | “Multikulturalizmin Azərbaycan modeli” adlı kitab ərəb dilində nəşr olunub. | Yanvar | Ərəb dili | UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının maliyyə dəstəyi və BBMM-in elmi rəhbərliyi ilə Emil Rəhimovun müəllifi olduğu kitab Mərkəzin icraçı direktoru Rəvan Həsənovun və ICESCO -nun Baş direktoru Səlim Əl-Malikin öz söz müəllifliyi ilə çap olunub. |

| | | | | |
|---|---|---|---|---|
| **4.** | “Dağıdılmış irs: səssiz şahidlər” fotoalbomu çap olunub. | fevral | İngilis dili | BBMM, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Qarabağ Dirçəliş Fondunun birgə layihəsi olan və dünyaca tanınmış fotoqraf Reza Deqatinin şəkilləri əsasında hazırlanan fotoalbomda Qarabağ və Şərqi Zəngəzur İqtisadi rayonlarında mövcud olan tarixi-mədəni irsimizin işğaldan əvvəl və işğaldan sonra vəziyyəti əks olunub. Fotoalbom xarici diplomatik qurumlara və beynəlxalq təşkilatlara, eyni zamanda ölkəmizə səfər edən xarici nümayəndə heyətlərinə təqdim olunub. |
| **5.** | Azərbaycan ədəbiyyatının incilərindən sayılan “Əli və Nino” romanı Ukrayna dilinə tərcümə olunaraq Mərkəz tərəfindən nəşr edilib. | Fevral | Ukrayna dili | BBMM hər il Azərbaycanda yaşayan azsaylı xalqların dillərində müxtəlif nəşrlər çap edir. Azərbaycan ədəbiyyat nümunələrinin azsaylı xalqların dillərində nəşri etnik icmaların təklifləri əsasında həyata keçirilən layihədir. Qeyd etmək lazımdır ki, “Əli və Nino” romanı 2022-ci ildə Mərkəz tərəfindən |

| | | | | |
|---|---|---|---|---|
| | | | | ləzgi, talış və udi dillərinə, 2023-cü ildə isə tat dilinə tərcümə olunaraq nəşr edilib. Cari ildə ukrayna icmasının müraciəti əsasında əsər ukrayna dilində çap olunub. |
| **6.** | "Qafqaz Albaniyasının etnomədəni irsi" elmi jurnalın 5-ci buraxılışı nəşrə hazırlanıb və çap edilib. | Mart | Azərbaycan dili, rus dili, ingilis dili | Elmi jurnalda Qafqaz Albaniyasının tarixi, arxeoloji, etnoloji, etnoqrafik, memarlıq, mənbəşünaslıq, epiqrafika, linqvistika və numizmatika sahələrində bir sıra problemli məsələlərin araşdırıldığı məqalələr daxil edilib. Rusiya, Gürcüstan, Cənubi Koreya, İtaliya, Türkiyə, Özbəkistan, Qazaxıstan, Almaniya, Fransa, Kanada, Polşa, ABŞ, Litva və Azərbaycan alimlərinin araşdırmalarından ibarət topluda ermənilərin Qafqaz Albaniyası irsinin saxtalaşdırması faktlarına da geniş diqqət yetirilib. Elmi jurnal hər il Albanşünaslıq konfransının nəticələri kimi Mərkəz tərəfindən nəşr olunur və yayılır. |

| | | | | |
|---|---|---|---|---|
| **7.** | “Mən fəxr edirəm ki Azərbaycanlıyam” kitabı nəşr edilib. | Noyabr | Talış dili | Mən fəxr edirəm ki Azərbaycanlıyam” kitabında Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə cənub bölgəsinə göstərdiyi əvəzsiz xidmətlər – tikinti, abadlıq və quruculuq işləri barədə məlumatlar əksini tapıb. Eləcə də Lənkəran, Astara, Masallı və Lerik rayonlarında keçirdiyi görüşləri, zəhmət adamları ilə maraqlı söhbətləri yer alıb. Kitabın müəllifi talış icmasının nümayəndəsi İradə Məlikovadır. Kitab Mərkəzin azsaylı xalqların dillərində nəşrlər layihəsi çərçivəsində nəşr olunub. |
| **8.** | “Həyatnamə əsəri” kitabı nəşr edilib. | Noyabr | Ləzgi dilində | Kitab Ləzgi icmasının müraciəti əsasında Mərkəzin azsaylı xalqların dillərində nəşrlər layihəsi çərçivəsində çap olunub. “Həyatnamə əsəri” kitabında isə Eyvaz Güləliyevin şeirləri, qəzəlləri və Azərbaycanın tanınmış şairlərinin ləzgi dilinə tərcümə olunmuş əsərləri yer alıb. |

| | | | | |
|---|---|---|---|---|
| **9.** | “İslamofobiya – Şərq və Qərbin divanı” adlı kitab nəşr edilib. | Dekabr | Azərbaycan dili | Kitab bütün dünyada artan İslamofobiya təzahürünün tarixi aspektlərinə həsr edilib. Kitabın müəllifi tanınmış jurnalist BBMM-in baş məsləhətçisi və alim Araz Qurbanovdur. |
| **10.** | Avropa İslamofobiya hesabatı nəşr olunmuşdur. | Dekabr | İngilis dili | Hesabat Beynəlxalq İslamofobiya ilə Mübarizə Gününə həsr olunmuş konfrans çərçivəsində avropalı alimlərin iştirakı ilə hazırlanmış və bütün Avropa ölkələrindəki artan islamofobiya faktlarını statistik olaraq əhatə etməkdədir. |

**V bölmə**
**BBMM-in fəaliyyətinin KİV-də işıqlandırılması**

BBMM-in 2025-ci il ərzində fəaliyyəti, layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər müntəzəm olaraq AzTV, CBC Azərbaycan, ATV, Real TV, İTV, Xəzər, Space, ARB 24, Mir TV-Azərbaycan, Qərbi Azərbaycan TV, AZƏRTAC, BAKU, APA, ANEWZ telekanalları tərəfindən işıqlandırılıb. Bu televiziya kanallarında Mərkəzin həyata keçirdiyi tədbirlərlə bağlı toplam 85 videosüjet, müsahibələr və verilişlər hazırlanıb, nümayiş olunub. Eyni zamanda, BBMM-in icraçı direktoru Rəvan Həsənov EDNews-TV-nin "Vətəndaş mövqeyi", Təhsil TV-nin "Öyrənmənin üfüqündə" verilişlərinin, Səs TV-də "Azərbaycan multikulturalizmi modeli örnəkdir" mövzusunda verilişin qonağı olub. Azərbaycanda və xaricdə keçirilən tədbirlər çərçivəsində yerli və beynəlxalq televiziya kanallarına müsahibə və açıqlamalar verib.

"azertag.az", "azerbaijan-news.az", "yeniazerbaycan.com", "ikisahil.az", "report.az", "oxu.az", "milli.az", "moderator.az", "modern.az", "525.az", "mediapost.az", "az.edu.az", "Tehsil.biz", "missiya.az", "atributinfo.az", "veteninfo.az", "xeberal.az", "adalet.az", "apa.az", "globalinfo.az", "trend.az", "sia.az", "Azerforum.com", "qafqazinfo.az", "xalqqezeti.az", "publika.az", "far.az", "baymedia.az", "yenicag.az", "azxeber.az", "cebheinfo.az", "axar.az", "unikal.az", "redactor.az", "ajmedia.info", "qaynarinfo.az", "aztime.az" və digər saytlar il ərzində BBMM-in ölkə daxilində və xaricdə keçirdiyi konfranslar, görüşlər haqda məlumatları, yerli və xarici alimlərin, mütəxəssislərin müsahibələrini, təhlillərini davamlı olaraq yayıblar. Ümumilikdə Mərkəzin fəaliyyətini əhatə edən 80-dən artıq press-reliz hazırlanıb. Qeyd olunan saytlarda bu press-relizlərlə bağlı 750-dən çox xəbər yayımlanıb.

Aprelin 10-da Müqəddəs Taxt-Tacın Vatikan Qriqorian Pontifik Universitetində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin həmtəşkilatçılığı ilə keçirilən "Azərbaycanda xristianlıq: tarix və müasirlik" mövzusunda Qafqaz Albaniyası irsinə həsr edilən XII beynəlxalq elmi konfrans İtaliya mətbuatında, eyni zamanda digər Avropa ölkələrinin mediasında geniş işıqlandırılıb.

Mərkəzin 2025-ci ildə üçüncü dəfə təşkil etdiyi 15 mart - İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününə həsr olunan beynəlxalq konfransla bağlı bütün yerli media orqanları geniş informasiya təqdim ediblər, həmçinin dünyanın 30-a yaxın ölkəsində konfrans haqda 195 xəbər, videosüjet, məqalə təqdim olunub. Qətərin "Əl-Cəzirə" telekanalı konfransı canlı yayımlayıb.

2025-ci il ərzində "Azərbaycan", "Xalq qəzeti", "Yeni Azərbaycan", "Bakinskiy raboçiy", "İki Sahil", "525-ci qəzet", "Səs" və "Mədəniyyət" qəzetlərində Mərkəzin fəaliyyətinə dair məqalə və məlumatlar dərc olunub. Həmçinin BBMM-in icraçı

direktoru Rəvan Həsənovun “Optimizmin və yaradıcılığın filosofu”, “Konstitusiya etnomədəni müxtəlifliyin qarantı kimi”, “Mədəniyyətlərarası və dinlərarası dialoq kontekstində Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələ” məqalələri qəzetlərdə dərc olunub. Ərəb Dövlətləri Liqasının nəşr etdiyi “Ərəb evi” jurnalında Rəvan Həsənovun Qahirə şəhərində keçirilən “İslamofobiya: Mövcud qlobal kontekstdə konsepsiya və təcrübə” adlı beynəlxalq konfransda İslamofobiyaya qarşı mübarizəyə həsr olunan məruzəsinə yer verilib.

2018-ci ilin oktyabr ayından etibarən yayımlanan və BBMM-in Azərbaycan Televiziyası (AzTV) ilə birgə telelayihəsi olan “Multikulturalizm” verilişi cari il ərzində də davam edib. 2025-ci ildə “Multikulturalizm” verilişinin 11 buraxılışı yayımlanıb. Verilişlərdə irqi ayrı-seçkilik, islamofobiya, ksenofobiya, antisemitizm halları və onlarla mübarizə haqda söz açılıb, 31 mart - Azərbaycanlıların Soyqırımı mövzusuna yer verilib, xarici ölkələrdə Azərbaycan multikulturalizmini öyrənən tələbə və tədqiqatçıların mədəni müxtəliflik, tolerantlıq, dinlərarası dialoq haqda fikirlərindən, eləcə də Beynəlxalq Multikulturalizm Məktəbinin fəaliyyətindən bəhs olunub, verilişin Konstitusiya və Suverenlik İlinə həsr olunan sayı Xankəndi şəhərindən çəkilib, Azərbaycan Mətbuatının 150 illik yubileyi çərçivəsində media və multikulturalizm məsələləri mövzusu müzakirə edilib, həmçinin verilişlərdə II Beynəlxalq Multikulturalizm Gənclər Forumundan, Azərbaycandakı tolerantlıq ənənələrindən danışılıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2025-ci il ərzində fəaliyyəti barədə bütün məlumatlar Mərkəzin 3 dildə - Azərbaycan, rus və ingilis dillərində yayılan http://multikulturalizm.gov.az rəsmi saytında (177), Mərkəzin feysbuk səhifəsində 3 dildə - Azərbaycan, rus və ingilis (989), rəsmi tvitter səhifəsi (102), rəsmi instaqram səhifəsi (269) və rəsmi yutub səhifəsində (59) yerləşdirilib.

Cari il ərzində Azərbaycan multikulturalizmi ilə bağlı BBMM-in təşkilatçılığı ilə keçirilən beynəlxalq tədbirlər haqda ABŞ, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Braziliya, Malaziya, İtaliya, Türkiyə, Almaniya, Misir, Yaponiya, Sudan, Niderland, Mərakeş, İspaniya, Albaniya, Çin, İordaniya, Pakistan, Nigeriya, Gürcüstan, Rusiya, Fransa, Ermənistan, Rumıniya, Polşa və İsrailin xəbər saytlarında məqalələr, xəbərlər, habelə qeyd olunan ölkələrin televiziyalarında müxtəlif dillərdə süjetlər yayımlanıb.

Ümumilikdə, 2025-ci il BBMM üçün yerli və beynəlxalq informasiya məkanında mövqeyinin gücləndirilməsi, multikultural dəyərlərin təbliği və Azərbaycanın tolerantlıq modelinin dünyaya təqdim olunması baxımından uğurlu və dinamik bir il olub.